525-ci qəzet. - 2025.- 19 sentyabr(№169).- S.11.

# Milli Musiqi Günü musiqi ocaqlarında geniş qeyd olunub

Sentyabrın 18-də Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının qarşısında Azərbaycan bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəylinin doğum gününə və Milli Musiqi Gününə həsr olunmuş təntənəli tədbir keçirilib.

Tədbirdə dövlət qurumlarının və ictimai təşkilatların nümayəndələri, tanınmış mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər iştirak ediblər. Konsertdə Müdafiə Nazirliyinin Nümunəvi və Əlahiddə Hərbi Orkestrinin və Azərbaycan Dövlət Xor Kapellasının ifasında klassik musiqi nümunələri təqdim olunub.

18 Sentyabr - Milli Musiqi Gününün növbəti ənənəvi tədbiri Azərbaycan Milli Konservatoriyasında keçirilib.

Konservatoriyanın rektoru Xalq artisti Kamilə Dadaşzadə Üzeyir Hacıbəylinin adı ilə bağlı olan əlamətdar günün əhəmiyyətindən, dahi bəstəkarın yaradıcılığından, Azərbaycan musiqisinin inkişafında göstərdiyi xidmətlərdən danışıb.

Mədəniyyət naziri Adil Kərimli Üzeyir Hacıbəylinin zəngin musiqi irsinin Azərbaycan mədəniyyətinin ən dəyərli sərvətlərindən biri olduğunu bildirib. Nazir diqqətə çatdırıb ki, 2025-ci il fevralın 3-də Prezident İlham Əliyev Şərqdə ilk operanın yaradıcısı, böyük musiqişünas-alim Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyi münasibətilə Sərəncam imzalayıb. Bu münasibətlə müxtəlif tədbirlər keçirilir. Belə tədbirlər həm xalqımızın milli musiqi irsini dərk etməsinə, həm də Üzeyir Hacıbəylinin zəngin irsinin gələcək nəsillərə ötürülməsinə xidmət edir.

Sonra Konservatoriyanın tələbələri musiqi proqramı ilə çıxış ediblər.